# Qəbələlilərin dahi rəhbərə ehtiramı

Dekabr ayının 12-də ölkəmizin hər yerində ulu öndər Heydər Əliyevin anım günü böyük ehtiramla qeyd olundu. Sübh tezdən minlərlə Qəbələ sakini və rayonumuzun qonaqları şəhərin mərkəzində yerləşən Heydər Əliyev parkına toplaşmışdı. Onlar ümummilli liderin unudulmaz xatirəsinə dərin ehtiramlarını bildirmək üçün burada idilər.

Ulu öndər hər bir azərbaycanlının qəlbində özünə daimi yaşamaq kimi ölməzlik qazanmışdır. Heydər Əliyev bütün şüurlu həyatını Azərbaycana, Azərbaycan xalqına həsr etmişdir. Hansı sahədə olursa olsun Heydər Əliyevin tək bir amalı olmuşdur. Azərbaycanın inkişafı, xalqın rifah halının yüksəlməsi. Ulu öndər öz yorulmaz fəaliyyəti ilə bu amalına çatan tarixdə yetişmiş çox az liderlərdəndir.

Hələ sovet hakimiyyəti illərində Azərbaycana rəhbərlik edərkən Heydər Əliyev müxtəlif gedişlərlə İttifaq məngənəsini qıra bilmiş, mərkəzi hakimiyyətin müəyyənləşdirdiyi çərçivədən vətəninin naminə çıxa bilmişdir.

Həmin dövrlərdə Heydər Əliyevin yorulmaq bilməyən səyi nəticəsində Azərbaycanda çox güclü iqtisadi potensial yaranmışdır. Sənaye, kənd təsərrüfatı qısa müddətdə misilsiz inkişaf yolu keçmişdir.

Heydər Əliyevin Azərbaycan üçün ən böyük xidməti bütün sahələr üzrə güclü, savadlı böyük təşkilatçılıq qabiliyyətinə malik kadrların, mütəxəssislərin yetişdirilməsi olmuşdur.

Xalqın inkişafının əsas göstəricisi olan təhsil, səhiyyə, mədəniyyət sahələri də Heydər Əliyevin rəhbərlik illərində çiçəklənmə dövrünü yaşamışdır. Heydər Əliyev İttifaq dövründə yetişdirdiyi güclü iqtisadi, mədəni, kadr potensialı əsasında azərbaycanda qısa müddətdə möhkəm, əbədi, sarsılmaz müstəqil dövlət yaratdı.

Ulu öndərin müəyyən etdiyi yolu bu gün onun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev uğurla, yaradıcılıqla davam etdirir.

Prezident İlham Əliyevin rəhbərliyilə ölkəmiz ildən-ilə yeni-yeni uğurlara imza atır. Bir vaxtlar keçmiş SSRİ məkanında belə az tanınan Azərbaycanın səsi bu gun ən mötəbər məclislərdən gəlir. Azərbaycan dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının üzvü, Şimali Atlantika İttifaqı (NATO) kimi təşkilatların sülh naminə tərəfdaşıdır. Azərbaycan öz dini inancına görə müsəlman ölkəsidir. Ancaq burada digər dini inanclara bağlı xalqların nümayəndələri də yaşayır ki, bunlar arasında heç bir dini ayrıseçkilik yoxdur. Azərbaycan dünyada tolerantlıq nümunəsi kimi tanınır. Bütün bunlar ulu öndər Heydər Əliyevin əsasını qoyduğu yolun uğurlu davamıdır. Məhz buna görə də bu gün xalqımız dahi rəhbəri dərin ehtiramla xatırlayır.







Saat 10:00-da Heydər Əliyev parkındakı izdiham dalğalanır. Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, RİH başçısının müavinləri, aparat işçiləri, hüquq mühafizə orqanlarının və digər idarə və müəssisələrin rəhbərləri ilk öncə ulu öndərin abidəsi önünə tər gül-çiçək dəstələri düzür, ehtiramlarını bildirirlər. Sonra ağsaqqalların, ziyalıların, ictimaiyyətin nümayəndələrinin, idarə və müəssisələrin işçilərinin, ümumiyyətlə, əhalinin bütün təbəqələrinin nümayəndələrinin ulu öndərin abidəsinə ziyarətləri axşama qədər davam edir. Tədbir iştirakçıları buradan axın-axın Heydər Əliyev Mərkəzinə gəlir, ulu öndərin həyat və fəaliyyətini əks etdirən ekspozisiya ilə tanış olurdular. Sonra tədbir iştirakçıları Karvansaray oteldə təşkil olunmuş ehsan süfrəsində ulu öndərin ruhuna oxunan Qurani-Kərim ayələrinə qulaq asmışlar.



**Qüdrət SƏMƏDOV.**
**Fotolar İ. Vəlizadənindir.**

